# Azərbaycan öz uğurları ilə USAİD-in planlarını alt-üst edir




Bir neçə həftə əvvəl Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkədə vətəndaş iğtişaşları və zorakılıqla hakimiyyət dəyişikliyinin planlaşdırıldığı barədə açıqlama yayılıb.

Bu günlərdə isə Gürcüstanın DTX-si tərəfindən bildirilib ki, Tbilisidə hakimiyyət dəyişikliyində iştirak edəcək fəallar üçün təlim keçirilib. Məlumatlardan belə aydın olur ki, qonşu ölkədə hakimiyyətin devrilməsinə yönəlmiş cəhdlərin təşkilatçısı ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyidir (USAİD).

Gürcüstan xüsusi xidmət orqanlarının aşkar etdikləri bu məsələ USAİD-in iştirakı ilə bu ölkədə hakimiyyətin zorla dəyişdirilməsinə hesablanmış ilk hadisə deyil. Ümumiyyətlə isə adında inkişaf olsa da, USAİD-in fəaliyyət göstərdiyi bütün ölkələrdə pozuculuq fəaliyyəti ilə məşğul olduğu dəfələrlə öz təsdiqini tapmışdır. Keçmiş sovet ittifaqının bir çox ölkələrində bu təşkilatın adı hər zaman siyasi proseslərə açıq müdaxilədə, hakimiyyət çevrilişlərinə cəhdlərdə və bütün bunlar üçün gənclərin radikal şəkildə yönləndirilməsi və s. hallanıb.

Bu gün Gürcüstan və digər ölkələrdə USAİD-in iştirakı ilə ortaya çıxan problemlər müxtəlif formalarda Azərbaycanda da yaşanıb. USAİD maliyyə ayırdığı, dəstəklədiyi təşkilatlar vasitəsilə təmsil etdiyi siyasi mərkəzlərin maraqları naminə respublikamızda da pozuculuq fəaliyyəti həyata keçirməyə çalışıb.

Xatırladaq ki, 2014-cü ildə USAİD tərəfindən Azərbaycanda "müstəqil medianın inkişafı" üçün 2,4 milyon dollar məbləğində qrantın elan olunması da bu qurumun respublikamızdakı pozuculuq cəhdlərinin dəstəklənməsinə hesablanmışdı. Qrant vasitəsilə özünü guya şəffaf bir qurum kimi göstəməyə çalışan USAİD bu vəsaiti onun maraqlarını təmin edən media orqanlarına ayırmışdı.

USAİD -lə yanaşı, ABŞ Milli Demokratiya İnstitutu (MDİ) da elə onun kimi respublikamızda zaman-zaman pozuculuq fəaliyyətlərinə cəhd göstərib. 2014-cü ildə MDİ-nin Bakıdakı nümayəndəliyinin keçmiş rəhbəri Aleks Qriqoryevs bu məqsədlə özünün bank hesabından 2 milyon dollara yaxın vəsaiti çıxarıb bəzi QHT-lərə, konkret şəxslərə paylamışdı. Bu adamın adı digər keçmiş sovet respublikalarında da bu cür pozuculuq fəaliyyətləri ilə məşğul olmaqda keçir.

Son dövrlərdə Azərbaycanda müharibə əleyhinə hərəkatın - "NoWar"ın meydana çıxmasında USAİD və digər xarici təşkilatların fəaliyyətinin nəticəsidir. Eyni zamanda "feminist"lərə dəstək verməklə USAİD kimi təşkilatlar xalqımızın milli dəyərlərinə qarşı çıxırlar.

Əlbəttə, Azərbaycan güclü dövlətdir, cəmiyyətimiz də sağlamdır, milli və dövlətçilik amalları uğrunda səfərbərdir. Buna görə USAİD kimi təşkilatların bütün antimilli fəaliyyətləri Azərbaycanda hər zaman fiaskoya uğrayıb. Vətən müharibəsi və son olaraq Qarabağda Azərbaycan hakimiyyətinin bərqərar olması USAİD və onun kimi təşkilatların bütün planlarını alt-üst etdi.

Ümumiyyətlə isə, reallıq odur ki, USAİD-in Azərbaycanda fəaliyyətinə ehtiyac yoxdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 5 oktyabr.- S.5.